Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistan Azərbaycan qarşısında aciz duruma düşdüyünü etiraf edir - Moskvanın Bakıya hərbi texnika satışı İrəvanda yeni təşviş dalğası yaratdı...

**Dünyada yeni iqtisadi böhranın başlanmasına və bunun ölkələrə müxtəlif cür təsir etməsinə rəğmən, hərbi sahədə dövlətlər planlarından geri çəkilmir. Dünya miqyasında ölkələr və hərbi birliklər tərəfindən keçirilən təlimlər, əsgəri texnikanın alış-satışı da qeyd olunanların təsdiqidir.**

Bu mənada, müharibə vəziyyətində olan Azərbaycanın da təlimlər keçirməsi, hərbi texnika alması tamamilə təbii qarşılanır.

Xatırladaq ki, cari il ərzində Azərbaycan hərbi texnika alışına 1 milyard dollara qədər vəsait sərf etməyi planlaşdırır. Artıq o da məlumdur ki, bu vəsaitin müəyyən hissəsi qonşu Rusiyadan yeni hərbi təyyarələrin alınmasına sərf olunacaq. Bu fonda o da sirr deyil ki, Rusiya özü də Azərbaycana hərbi təyyarələrin tədarükünü realizə etməyə hazırdır. O da bəllidir ki, söhbət Su-35 və MiQ-35 qırıcı təyyarələrindən gedir. Bu məsələ artıq neçə gündür Ermənistanda da aktual şəkildə müzakirə olunur. İndiki halda Moskvanın Bakıya hərbi texnika satışını İrəvan özünə ciddi zərbə kimi dəyərləndirir. Mövzuya yenidən toxunan Ermənistanın "Iragir.am" nəşri yazır ki, razılaşma baş tutarsa, Ermənistan-Rusiya müqaviləsinin Su-30 SM çoxfunksiyalı təyyarələrin tədarükü baxımından əhəmiyyəti həqiqətən itəcək:"Azərbaycan Ermənistanla müqayisədə Rusiyadan daha müasir təyyarələr alır. Özü də burada say baxımından da Azərbaycanın önə çıxması gözlənilir. Moskva ilə Bakı arasında yeni sövdələşmənin əhəmiyyəti regionaldır və əks hücumun imkanlarının genişlənməsi hesabına erməni tərəfinin susdurulması və sabitliyin təmin edilməsinə yönəlib Belə olan halda Azərbaycana yeni döyüş təyyarələrinin satılması Ermənistan üçün ciddi zərbədir. Əlbəttə ki, Rusiyaya pul lazımdır, baxmayaraq ki, təyyarələrin satışından ala biləcəkləri pul Rusiyanın ehtiyac duyduğu ümumi miqdarda çox cüzidir. Ancaq bu vəziyyətdə əsas məqam pulun həcmi deyil, onun təhlükəli vəziyyətə gətirməsidir. Aprel döyüşlərindən əvvəl Moskva ermənləri siyasi imkanlar əldə etdiyinə inandıraraq Bakıya milyardlarla dollar silah verdi. Realda isə mənzərə tam əksinə idi, Bakı Rusiyadan siyasi haqq qazandı. Hazırda bunun təmiz bir ticarət olduğu və Moskvanın Ermənistana siyasi imkanlar qazandırdığı barədə danışmaq həm Ermənistan, həm də Rusiyanın özü üçün təhlükəli, çox təhlükəli bir aldanma demək olacaq. Bakını bu cür strateji əhəmiyyətli silahlarla təmin etmək barədə qərar verən insanlar Rusiya dövlətçiliyinə qarşı qərar qəbul edirlər. Realda, xüsusilə aprel döyüşlərindən çıxarılan dərs kontekstində Rusiyadan Bakıya təyyarə satılması məsələsi yox, Ankara və Bakıya rus dövlətçiliyinin satılması məsələsi qoyulub və bu qərar, praktik olaraq, məhz bu demək olacaq".

Erməni siyasi şərhçi Akob Badalyan da qeyd edir ki, illər əvvəl Moskva və İrəvanın Su-30SM çoxfunksiyalı təyyarəsinin sövdələşməsini müzakirə etdiyi barədə məlumat yayıldıqda Rusiyanın Su-35 satmaq üçün Azərbaycanı da maraqlandırmağa çalışdığı barədə ekspert rəyləri yayılmışdı:"Məlumdur ki, keçən il Rusiya Ermənistana Su-30SM qırıcı təyyarələri vermişdi və dekabr ayında təyyarələrin birinci partiyası İrəvan aerodromuna çatdırılmışdı. Ermənistan müdafiə naziri David Tonoyan ikinci partiyanın da 2020-ci ilin ilk aylarında gətiriləcəyini bildirmişdi. İrəvan bunu, rəqibə qarşı üstünlük əldə etməklə yanaşı, hərbi-siyasi tarazlıq səviyyəsini və erməni tərəfinin Azərbaycanın gücünü yatırmaq qabiliyyətini xeyli artıran hava hökmranlığı strategiyası çərçivəsində əldə olunan uğur kimi qiymətləndirirdi. Yanvar ayında Tonoyan yaxın aylarda Ermənistana yeni bir dəstənin gələcəyini açıqladı. Əslində, Rusiya Ermənistana tədarükü qiymətləndirərək, digər əli ilə Azərbaycanı silahlandırma prosesini yenidən davam etdirir. Ruslar aprel döyüşlərini yetişdirərkən, Azərbaycanı dişlərinədək silahlandırmanın ilk mərhələlərində dedikləri kimi, "Bu biznesdir, şəxsi heç bir şey yoxdur". Əlbəttə ki, neft bazarında kritik günlər yaşayan Rusiya hazırda hərbi sənaye sifarişçilərinə ehtiyac duyur, ancaq aprel döyüşlərindən əvvəl sadəlövh və hətta rüsvayçı olduğu kimi, indi hər şeyi biznesə aid etmək sadəlövhlük olardı. Rusiya üçün Azərbaycan Kremlin birbaşa Ankara və Tehranla rəqabət etdiyi bir məkandır və geniş mənada yeni dünya nizamının Amerika-Çin bölgüsü prosesində mümkün qədər iştirak etməyə çalışır. Bu baxımdan Rusiya Azərbaycana münasibətdə, əlbəttə ki, siyasətindən geri çəkilməyəcək. Bütün problem ondadır ki, hər iki halda Moskva Ermənistanı və ya erməni məsələsini "resurs" hesab edir. Erməni mühitində bir az zəiflətmək kifayətdir, Rusiya dərhal bu vəziyyətdən istifadə etməyə çalışır. Hazırda Ermənistan koronavirus epidemiyası, xüsusən onun iqtisadi və siyasi aspekti ilə qarşı-qarşıyadır. Üstəlik, bu şəraitdə İrəvan Moskva qarşısında qazın qiymətinin azaldılması və əslində məlum biabırçı qaz müqaviləsinə yenidən baxılması məsələsini qaldırır. Məsələni Paşinyan Putinlə telefon danışığında da müzakirə edib.

Budur, Azərbaycan mətbuatında Rusiyanın Bakıya yeni nəsil hərbi təyyarə satmağa hazır olduğu barədə açıqlamalar yayılır. Ancaq İrəvanın qaz qiymətlərinin aşağı salınması ilə bağlı müraciətindən sonra bu məlumatın Azərbaycan mətbuatında yayımlanması təəccüblü deyil. Təəccüblü deyil, çünki bundan əvvəl illərdir Bakıdan qidalanan rusiyalı ekspertlər Rusiyanın niyə qazın qiymətini qaldırması lazım olduğunu əsaslandırmaq üçün Ermənistan mətbuatında məqalələrlə çıxış edirdilər. Görünən odur ki, Rusiyanın Azərbaycana hərbi təyyarələr verməsinin səbəbini əsaslandıracaq yeni ekspertlər ortaya çıxacaq. İstənilən halda, Rusiyadan yeni silah alışı ilə Azərbaycan daha da güclənir və bu, erməni tərəfi üçün müsbət heç nə vəd etmir".

Ekspertlər də erməni tərəfinin narazılığının əsassız olmadığını bildirir. Çünki alınacaq təyyarələr Azərbaycanın düşmənə daha sərt zərbələr vurmasına gətirib çıxaracaq. Bu xüsusda elə bu günlərdə Azərbaycan Hərbi Hava Qüvvələrində (HHQ) xidmət etmiş, hazırda ehtiyatda olan polkovnik-leytenant Rövşən Həşimov da maraqlı açıqlamalar vermişdi. Onun sözlərinə görə, Su-35 və MiQ-35 təyyarələrinin Azərbaycana tədarükü barədə aparılan danışıqlar yaxın zamanda ölkəmizin Hərbi Hava Qüvvələrinin daha da gücləndirilməsinə imkan verəcək:"Bunu daha aydın təsəvvür etmək üçün təyyarələrin uçuş-texniki xüsusiyyətləri və döyüş imkanlarına diqqət çəkmək istərdim. Hər iki tip çoxfunksiyalı və yüksək manevrli döyüş təyyarələrinin özəlliyi onların 4++ nəslinə aid olmasıdır. Bu nəsil təyyarələrə qədər istehsal olunan digər döyüş qırıcıları yalnız modernizə olunaraq onların müəyyən imkanları artırılırdı. Bu təyyarələrin üstün xüsusiyyətlərindən biri də onların maksimal uçuş uzaqlığıdır. Bu göstərici Su-35-də 4500 kilometr, MiQ-35-də isə 3500 kilometrdir. Hər iki təyyarədə hədəfləri aşkar etmək üçün yeni tip radiolokasiya stansiyaları quraşdırılıb. Açıq arxitekturası olan hər iki təyyarə lokal müharibənin aparılmasında mühüm rol oynayan radioelektron mübarizə vasitələrindən ibarət rəqəmsal müdafiə kompleksləri ilə təchiz edilib. Bu, həmin təyyarələrə bütün növ müasir aviasiya silahlarından istifadə etmək imkanı verir.

Ən yeni texnologiyaların tətbiqi ilə istehsal edilən Su-35 təyyarəsi "hava-hava" sinfinə aid yeni R-37M səsdən sürətli raketlərdən istifadə edir və məhz buna görə də 300 kilometr uzaqlıqda olan hava hədəflərini məhv etmək imkanına malikdir. Düşmənin hava hücumundan müdafiə vasitələrinin əhatə etdiyi zonadan kənarda qalmaqla yüksək dəqiqlikli silahlarla yerüstü və suüstü hədəflərə effektiv zərbələr endirməyə malik olan Su-35 təyyarəsi 12, MiQ-35 təyyarəsi isə 9 ədəd müxtəlif tipli aviasiya məhvetmə vasitələri daşımaq üçün asqı nöqtəsinə malikdir. Su-35 təyyarələri "hava-hava" tipli R-73, R-77, R-27 raketləri, "hava-yer" tipli X-25, X-29, X-38 raketləri, gəmiyə qarşı X-31, X-35, X-59 raketləri və KAB-500KR, KAB-1500KR, MiQ-35 təyyarələri isə "hava-hava" tipli R-73, R-77, R-27 raketləri, "hava-yer" tipli X-25, X-29, X-38 raketləri, gəmiyə qarşı X-31 raketləri və KAB-500L, KAB-500KR bombaları ilə silahlana bilirlər. Su-35 və MiQ-35 qırıcılarının fərqləndirici xüsusiyyətlərindən biri də uzaq məsafədə eyni vaxtda bir neçə hava hədəfinin aşkar edilməsi, izlənməsi və məhv edilməsidir.

Azərbaycan HHQ-nin bu növ qırıcı təyyarələrlə gücləndirilməsi döyüş əməliyyatları zamanı onlara ordumuzun qoşun növləri və qismlərini havadan dəstəkləməklə yanaşı, düşmənin yerüstü qoşun qruplaşmasını, hərbi və strateji əhəmiyyətli obyektlərini məhv etmək imkanı verəcək". Elə Ermənistanda da narazılıq və narahatlıq yaradan məqamlar bunlarla bağlıdır. Lakin o da faktdır ki, indiki halda Ermənistanın istənilən narazılığı hansısa əhəmiyyət kəsb etmir. Çünki bundan əvvəl də Rusiyanın Azərbaycana silah satmasına Ermənistan öz narazılığını bildirmişdi. Amma o vaxt da bunu kimsə nəzərə almadı. Elə indi də proseslərin məhz bu məcrada inkişafı gözlənilir. Nəticə isə ondan ibarət olacaq ki, Azərbaycan düşmən üzərində daha böyük hərbi üstünlük qazanacaq. Təbii ki, bu da Dağlıq Qarabağ münaqişəsinə mütləq mənada öz təsirini göstərəcək.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap olunur.**